Şiələrin Mehdi haqqında fikirləri.



DOKTOR ƏBDÜL ƏZİZ İBRAHİMİ.

بِسْمِ اللّهِ الرَّحْمنِ الرَّحِيمِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

Ön söz.

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edirik, Onu köməyə çağırırıq. Ondan bağışlanmağı və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərrindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir. Əziz oxucular mənim qeyd edəcəyimdə məqsədim heç də şiələri təhqir etmək deyil, lakin haqqı bəyan edib və onların batil fikirlərini üzə çıxartmaqdır. Bu isə onların xoşuna gəlməsə də, haqqı inkar etmək olmaz. Mənim bu kitabda hekayətləri qeyd etdiklərimi şiələr tərəfindən düşmənçilik, kin və yalan və yaxud da uydurma elan edəcəklər. Eləcə də məni İsrail və ya Amerika dövlətinə işləməkdə ittiham edəcəklər. Lakin onlar Əbul-Həsən İsfahani, Əhməd əl-Kisravi və ya seyyid Hüseyn Müsavi və başqaları haqında da belə demişlər. Amma bu məni qətiyyən narahat etmir, çünki bütün bu cür nəticələr olacağını çoxdan təcrübədən keçirtmişəm. Mən bu kitabda müəyyən mövzular açmışam. Hansı ki, mənim qardaşlarım məndən qabaq bu haqda qeyd etmişlər. Kim müsəlmanlar arasında haqqı axtarırsa ümid edirəm ki, qeyd etdiklərim hekayətləri yaxşı qarşılayacaqlar. Beləliklə də mən şiələrin əhli-beyt məktəbinin mənbələrinə istinad edərək onların fikirlərinin necə batil olduğunu qeyd edəcəyəm. Sonda bunu yenə qeyd edim ki, bunu bəyan etməkdə heç də şiələri təhqir etmək deyil, yalnız tənqid etməkdir. Eləcə də Allahdan müsəlmanlar üçün bu kitab vasitəsi ilə oxuyub faydalanmağını diləyirəm. ***"Şübhəsiz ki, bunda qəlb (ağıl) sahibi, yaxud (moizə edildiyi zaman bütün varlığı ilə) hazır olub (ona cani-dildən) qulaq asan kimsə üçün öyüd-nəsihət vardır!" (Qaf, 37)***

Abuseyid@hotmail.com

Şiələrin və Yəhudilərin zənn etdikləri.

Yəhudilərin fikrinə əsasən Məsihi Davud (yəni Dəccal-xilaskar) zühur etdiyi zaman Davud (ə) və Süleymanın (ə) hökmü ilə hökm verəcəkdir. Şiələrdə də eyni ideologiyadır. Çünki onların mötəbər hədis alimlərindən sayılan Məhəmməd Yə"qub ibn Kuleyni öz "Usuli kafi" kitabında bu məsələ ilə bağlı belə qeyd edir: **"Əbu Cəfər (Məhəmməd Baqir əleyhissalam) belə buyurdu: "Ey Əbu Ubeydə! Məhəmmədin (s)ın nəslindən bir** (Mehdi) **imam qalxdığı** (zaman) **və Davud Süleymanın hökmü ilə hökm verdiyi zaman, ondan qətiyyən dəlil istənilməz ". (**Müqayisə üçün Azərbaycan dilində, **"Üsuli kafi" 1 ci cild, səh 694, hədis № 1033).** Həmçinin eyni kitabda başqa bir rəvayətdə belə qeyd olunur: **"Əban belə rəvayət etmişdir: Əbu Abdullahın (Cəfəri Sadiq əleyhissalam): "Mənim nəslimdən bir adam** (Mehdi) **gəlib, Davud oğullarının hökmü ilə hökm verib, özündən hər hansı bir dəlil istəməyərək hər kəsə haqqını vermədən qiyamət qopmaz" dediyini eşitdim". (**Müqayisə üçün Azərbaycan dilində, **"Üsuli kafi" 1 ci cild, səh 694, hədis № 1034).** Bu yalnız yəhudilik anarxiyasıdır və yəhudiliyi müsəlman adı altında təbliğ etməkdir. Bunu da qeyd edim ki, İsrail dövlətinin ölkə qanunu məcəlləsində Məsihi Davud (yəni Dəccal-xilaskar) zühur etdikdə ona tabe olmağı göstərilir və İran İslam respublikasının ölkə qanunun məcəlləsində də Mehdi zühur etdikdə ona tabe olmağı göstərilir. (mənim bu məsələ ilə bağlı qeyd etdiklərim heç də siyasi məqsəd daşımır). Beləliklə də yəhudilərin gözlədikləri Məsihi Davud (yəni Dəccal-xilaskar) məhz şiələrin Mehdisidir. Bunu qeyd edim ki, Davud ilə Süleyman (ə) İslam ümməti üçün peyğəmbər göndərilməmişdir və Mehdi (ə) Davud ilə Süleymanın (ə) hökmü ilə hökm verə bilməz. Mehdi (ə) yalnız Quran ilə Məhəmmədin (s.ə.s) hökmü ilə hökm verə bilər və verəcəkdir. Çünki Uca Allah Qurani Kərimdə din olaraq İslam dininin hökmlərini bəyənib seçmişdir: ***"Sizin üçün din olaraq islamı bəyənib seçdim." (Maidə, 3).*** Bu məslə ilə bağlı şiələrə sual olaraq deyirəm: Yaxşı bəs onda Quran ilə Məhəmmədin (s.ə.s) hökmü harada qaldı?

Tarixin təhrif olunmuş səhifələri.

Şiələr etiqad edirlər ki, imam Mehdi doğulub və beş yaşında ikən İraqın Samerra şəhərində mağarada qeybə çəkilmişdir. Lakin şiə kitablarına istinadən müraciət etdikdə heç də 11-ci İmam Həsən əl-Əsgərinin heç bir qadınlarından övladı olmayıb və dünyasını dəyişdikdən sonra da olmamışdır. Qeyd edəcəyim hədisə əsasən şiələr inanırlar ki, Mehdi doğulmuşdur. Gəlin daha ətraflı mənim ilə bərabər müşahidə edək. **"Əliyyən-Nəqinin (ə) bacısı Həkimə xanım belə rəvayət edir: "(Mehdinin anası sayılan) Nərgizin heç bir hamiləlik əlamətləri yox idi. Bu məsələ ilə bağlı mən İmam Həsən Əsgəriyə müraciət edərək: "Ey mənim ağam uşaq hansı qadından anadan olacaqdır? Çünki mən Nərgizdə hamiləlik əlamətlərini görmürəm. İmam Həsən əl-Əsgəri: "Mehdi, Nərgizdən anadan olacaqdır." cavab olaraq verdi. Lakin mən ayağa qalxıb yenə diqqət ilə Nərgizə baxmağa başladım. Amma onda hamiləlik əlamətlərini görmədim. İmama bu haqda yenə də məlumat verdim. O, (ə) gülərək: "Səhər sənə bəlli olacaq ki, onun (Nərgizin) uşağı var. Çünki O, Musanın (ə) anasına bənzəyir. Çünki Musa (ə) anasının bətnində nə vaxt anadan olacağını gizli qalaraq heç kəs bilmirdi. Bu gecə doğulacaq uşaq da Musaya (ə) bənzəyir." dedi." (Biharul-ənvar, 5-ci cild, səh 12-14, Kəmalüddin, 2-ci cild, səh 100 – 102).** Bununla da belə şiə məzhəbinin adət ənənəsinə görə Mehdinin anasının hamiləlik əlamətləri qeyd olunmamışdır.

1) Mehdinin anası sayılan Nərgizin heç bir hamiləlik əlamətləri olmayıb.
2) Musanı (ə) anası dünya gətirməmişdən qabaq onun hamiləlik əlamətləri qeyd olunmuşdur.

3) Musanı (ə) Mehdidən fərli olaraq bütün İsrail oğulları görmüşdülər. Lakin şiələrə görə Mehdini demək olar cüzi insanlar görmüşdülər.
4) Musa Mehdi (ə) kimi qeybə çəkilməmişdir.
5) Şübhəsiz ki, Musanın (ə) doğulmasında heç kim şübhə içində olmayıb. Lakin. Mehdinin doğulmasında hətta bəzi şiələr də şübhə içində olmuşlar. Imamiyyə şiələri iddia edir ki, Həsən əl-Əsgəri öz əcəli ilə deyil məhz onu zəhərləyərək ölmüşdürlər. Lakin həqiqətən Həsən əl-Əsgərini nə zəhərləmişlər nə də onun övladı olmamışdır. Mən Kuleynin əl-Kafi əsərinə istinadən qeyd edirəm: **"Məhəmməd b. Yəhya və başqaları belə rəvayət edirlər: "Bu, Həsən əl-Əsgəridir. Öz əcəli ilə və yatağında ölmüşdür. Öldüyü zaman, yanında Əmirul – möminin xidmətçilərindən və güvənilən adamlarından filankəs və filankəs, qazilərdən filankəs və filankəs, təbiblərdən filankəs və filankəs var idi. Sonra** (Həsən əl-Əsgərinin) **üzünü örtdülər və cənazəni qaldırdılar. Cənazə evin ortasından götürüb atasının dəfn edildiyi otağa basdırıldı. Dəfn etdikdən sonra bir müddət mirasın paylaşdırılmasına da ara verdilər.** (Çünki) **Hamilə olduğu zənn edilən cariyənin** (Nərgizin) **başında dayananlar, hələ də gözləməkdə idilər. Lakin cariyənin** (Nərgizin) **hamilə olmadığı bilindi. Onun hamilə olmadığını başa düşəndə,** (Həsən əl-Əsgərinin) **mirası anası və qardaşı arasında paylaşdırıldı." (**Müqayisə üçün Azərbaycan dilində, **"Üsuli kafi" 1-ci cild, səh 900, hədis № 1323).** Şiələrin əhli-beyt adlandırdığı məktəbin kitablarında səkkiz belə rəvayətə rast gəlmək olar ki, Mehdi doğulmamışdır. Kiminsə bu məsələ ilə bağlı şübhəsi olsa şiələrin bu kitablarına müraciət edə bilərlər. **("Əl-Qeybət" ət-Tusi, səh, 74. "Əl-İrşad" əl-Müfid səh, 345. "Ə'lamül-vəra" əl-Fədlə ət-Təbərsi, səh, 380. "Əl-Məqalət vəl firəq" Əl- Əş`əri, əl-Qummi səh, 102).**
Bunu da qeyd edim ki, Əlidən (r.a) Mehdinin qeyb müddəti barəsində soruşanda O, belə buyurmuşdur: **"Altı gün, altı ay və yaxud altı il." (**Müqayisə üçün Azərbaycan dilində, **"Üsuli kafi" 1 ci cild, səh 578, hədis № 890).** Lakin şiələrin iddia etdiklərinə görə Mehdi hicri 260-cı ilində qeybə çəkilmişdir. Lakin Əli (r.a) isə qeybin müddətini 6 il olduğunu qeyd edir. Nəticədə qeyd olunur ki, Mehdi (ə) doğulmamışdır. Gəlin mənim ilə bərabər müşahidə edərək baxaq gərək şiələr arasında "Qaim" (yəni öndə gedən rəhbər) ləqəbi ilə məşhur olan imam Mehdi zühur etdikdə nələr edəcəkdir?

Mehdi Ərəblərə qarşı qılınc qaldıracaq.

Məclisi nəql edir ki: "Mehdi bükülmüş qırmızı kağız ilə ərəblərin arasından keçəcək bu onların ölümü ilə nəticələnəcəkdir." (Biharul-ənvar, 52 ci cild, səh 318).
Eləcə də xəbər verilir ki, **"Bizimlə ərəblərin arasında ölüm qırğınından başqa heç nə qalmayıb". (Biharül-ənvar, 62 ci cild, səh 349).** Cəfər Sadiq (ə) belə buyurur: **"Qaim** (Mehdi) **zühur edən zaman onunla Ərəblər və Qüreyş arasında qılıncdan başqa heç bir şey hakim olmayacaqdır". (Biharül-ənvar, 52 ci cild, səh 355).** Hədislərin mətini dəlalət edir ki, şiələrin gözlədikləri Mehdi ərəblərə qarşı qılınc qaldırıb və müsəlmanları qıracaqdır. Bəllidir ki, müsəlmanlara qarşı məhz Dəccal savaşacaqdır. Fars yəhudilərinin ərəblərə qarşı etdiyi kinlik və düşmənçilik nəticəsində belə fikirlər meydana gəlir. Bunu da qeyd edim ki, məgər Quran ərəb dilində deyilmi? Məgər Allahın rəsulu (s.əs) özü ərəb olmayıbmı? Məgər İmamlar ərəblərdən törəmə deyildirmi? Mehdi özü ərəb olmayacaqmı?
Məclisi dəhşətli bir xəbəri nəql edir: **"Əgər insanlar bilsəydilər Qaim** (Mehdi) **zühur etdikdə nələr törədib neçə-neçə insanları öldürəcəkdir, o zaman onu** (Mehdini) **görmək istəməzdilər. Beləliklə insanlar deyəcəklər: O,** (Mehdi) **Məhəmmədin ailəsindən deyil. Əgər Məhəmmədin ailəsindən olsa idi o, bağışlamağı bacarardı." (Biharül-ənvar, 52 ci cild, səh**
Guya Cəfəri Sadiq (ə) belə buyurmuşdur: **"Qiyam zamanı Qaimin** (Mehdinin) **cahillərdən**

(Əhli-sünnilərdən) **çəkdiyi əziyyət peyğəmbərin cahil xalqdan çəkdiyi əziyyətdən ağırdır. Peyğəmbər zühur edən vaxt xalq daşa-taxtaya pərəstiş edirdi. Lakin Qaim zühur etdikdə isə insanlar** (Əhli-sünnilər) **öz mövqelərini Quran ayələrini sübut etmək üçün** (Mehdidən) **dəlil istəyəcəklər." (Nömani, "Əl-ğeybət", səh. 297).** Hədisin mətni dəlalət edir ki, şiələrin gözlədiyi Mehdi yəni bəlli olmuş Dəccal Quran ilə hökm verməyəcəkdir. Məhz bu səbəbdən Əhli-sunnə val-caamat Qurandan hökm vermək üçün Mehdi sayılan Dəccaldan bunu tələb edəcəklər. Amma bəlli olmuş Dəccal isə qeyd etdiyim kimi Davudun (ə) hökmü ilə hökm verəcəkdir. Buna oxşar məsələ ilə bağlı yəhudilərin tarixində vəd olunmuş Dəccal xilaskarın zühuru ilə bağlı məlumatlar var. Çünki yəhudilərin müqəddəs kitablarında belə qeyd olunur **"Şər adamların və zalımların varlığı Məsihi Dəccal-xilaskarı məyus etməz. Çünki zalımların nəsli yer üzündən kəsiləcəkdir. Allahın ədalətinin intizarında olanlar yer üzünə varis olacaqdır." (Əhdi-Davudun 37-ci nəğmələr səhifəsi).**

Mehdi Kəbə evini və peyğəmbər məscidini dağıdacaqdır.

Belə bir sual ortaya çıxır: Mehdi nəyə görə Kəbə evi ilə peyğəmbər məscidini bünövrəsindən sökəcəkdir? Cavab: Bu məsələ ilə bağlı Tusi belə izah edir: **"Müsəlmanların onda bir hissəsi yox olmayınca bu olmayacaq ".(əl-Qeybə, ət-Tusi, səh 146).**
İlk öncə istəyirəm aşağıda qeyd olunan hədisi isbat etmək üçün bunu ərəbcə qeyd edim:
(أبي بصير ، عن أبي عبدالله عليه السلام قال : القائم يهدم المسجد الحرام حتى يرده إلى أساسه ، ومسجد الرسول صلى الله عليه واله إلى أساسه) (بحار الأنوار 332/52)، (الغيبة للطوسي 282)
"Əbu Bəsir nəql edir ki, Cəfəri Sadiq (ə) belə buyurdu: "Qaim (Mehdi) **Məscdul-həram ilə peyğəmbər məscidini tamamilə başdan-ayağa bünövrəsindən dağıdacaqdır ". (Biharul-ənvar, 52 ci cild, səh 332, hədis № 57, "əl-Qeybə" ət-Tusi, səh 282).** Məclisi bu hədis ilə bağlı istinad etdiyi ravi **"Abdul Rəhman"** olan ravidir. Eləcə də şiələri rical kitablarında çox güvənilən ravi sayılır. Bununla belə hədis doğru səhihdir.
Məclisi izah edir ki: **"Qaim** (Mehdi) **ilk öncə qisas almaq üçün iki nəfərdən** (yəni Əbu Bəkir ilə Ömərdən) **başlayacaqdır. Onları dirildib sağlam bədənləri ilə edam edəcəkdir. Və (**Mehdi peyğəmbər) **məscidini sökəcəkdir." (Biharul-ənvar, 52 ci cild, səh 386).** Hədisin şərhi ilə bağlı şiələr belə izah edirlər ki: **"Əbu Bəkir ilə Ömər ibn Xattabın, vəsiyyətinə uyğun olaraq Peyğəmbərin (ə) qəbri yanında dəfn olduqları üçün Mehdi (ə) onlardan** (düzgün vəsiyyət etmədikləri üçün) **qisas alacaqdır."** Bununla da şiələr gördüyünüz kimi hədisi səhih qeyd edirlər. Bunu da qeyd edim ki, şiə alimlərinin icma ilə yekdil rəyinə əsasən: **"Peyğəmbərin (s) qəbiri yanında Əbu Bəkir ilə Ömər ibn Xattabın dəfn olunmağı düzgün hesab olunmur".**
Lakin yaddan çıxartmaq lazım deyil ki, hədisin ardınca belə qeyd olunur: "**Və (**Mehdi peyğəmbər) **məscidini sökəcəkdir." (Biharul-ənvar, 52 ci cild, səh 386).** Məhəmməd Təqi əl-Məclisinin Biharul-ənvar kitabının müəllifi istinad etdiyi hədisi **"Bəşir Nəbbal"** adlı ravidir. Şiələrin rical hədis rəvayətçilərinin kitablarında mötəbər və etibarlı sayılmamışdır. Buna görə də onlar hədisi düzgün səhih hesab edirlər.
"Əbu-Bəsir, Cəfəri Sadiqdən (ə) belə nəql edir: "Qaim (Mehdi) **qiyam edən zaman Məscidül-həram ilə Məscidun-nəbiyyəni əvvəlki görkəminə qaytaracaqdır." (Kafi, 4 cild, səh 543).** Şiələrə görə bu hədis səhihdir çünki ravilər arasında **"Əhməd ibn Məhəmməd"** adlı ravi mövcuddur O, isə onların rical kitablarında mötəbər və güvənilən ravi olduğunu qeyd olunur. Bunu qeyd edim ki, mən araşdırma apararkən sübut kimi şiələrin online saytına daxil olaraq **"Bəşir Nəbbal"** adlı ravini etibarlığını qeyd etdiklərini gördüm.
"ƏSRİN İMAMI MEHDİ SAHİBƏZ-ZAMANLA (Ə) TANIŞLIQ" kitabına müraciət edə bilərsiniz. Sual: 495 bax.
(http://www.nurulhoda.com/latin/latinja_ketabkhana/asrin%20imami%20mahdi%20sahibazzamanl(s)%20tanishliq.htm)

Lakin şiələr "Təqiyyə" edib yuxarıda qeyd olunan online saytında yalan danışaraq hədisin ardıcıl rəvayətinin tam orijinal formasında qeyd etməyiblər. Amma mən onların iç üzlərini açaraq isbat etmək üçün hədisin rəvayətini ərəbcə tam şəkildə olduğu kimi verirəm:
(يخرج هذين (يعني أبا بكر وعمر) رطبين غضين فيحر قهما ويذريهما في الريح ، **ويكسر المسجد**) (بحار الأنوار 386/52)
"Bəşir Nəbbal nəql edir ki, Cəfəri Sadiq (ə) belə buyurdu: Qaim (Mehdi) **ilk öncə qisas almaq üçün iki nəfərdən** (yəni Əbu Bəkir ilə Ömərdən) **başlayacaqdır. Onları dirildib sağlam bədənləri ilə edam edəcək, və (**Mehdi peyğəmbər) **məscidi sökəcəkdir". (Biharul-ənvar, 52 ci cild, səh 386, hədis № 200).** Şiələr hədisin mətni ilə əlaqədar olaraq özlərinə bəraət qazandırmaq üçün 1-ci rəylərinə görə rədd cavabları: Səhih Müslimdən bir neçə sitat gətirirlər:
1). **"Səhih-Müslimdə nəql olunmuş rəvayətə əsasən həzrət peyğəmbər (s) Kəbə evini yenidən bina etmək istəmişdir. Amma insanlar İslamı təzəcə qəbul etdiyindən bu fikrindən daşınmışdır."**
1). Bu məsələ ilə bağlı şiələrə rədd cavabı olaraq deyirəm: Əvvəla Allah rəsulu (s.ə.s) Kəbə evinin yenidən bina edilməsi üçün yox məhz Kəbə evinə iki tərəfdən qapı qoyulmasını məsləhət görmüşdür.
2) Şiələr "Təqiyyə " edərək yəni müsəlmanlardan haqqı gizlədərək hədisin mətni ilə əlaqədar özlərinə bəraət qazandırmaq üçün 2-ci rəylərinə görə belə izah edirlər: **"Mehdi məscidül-haram ilə Məscidun-nəbiyyəni ona görə əvvəlki vəziyyətinə qaytaracaqdır ki, onu köhnə vəziyyətinə qaytarsın".**
2) Cavab: Lakin bu heç də belə deyil. Çünki ərəbcə hədisin orijinal mətninə diqqət yetirsək:
(القائم يهدم المسجد الحرام حتى يرده إلى أساسه ، ومسجد الرسول صلى الله عليه واله إلى أساسه) (بحار الأنوار 332/52)
"Mehdi məscidül-haram ilə Məscidun-nəbiyyəni bünövrədən (yəni əsas) **kökündən dağıdacaqdır." (Biharul-ənvar, 52 ci cild, səh 332, hədis № 57).** Məhz yerlə bərabər edəcəkdir, çünki şiələrə görə Mehdi qibləgahı Kufəyə tərəf çevirəcəkdir. "Həcər-əl-Əsvad" yəni müqəddəs cənnətdən düşməsinə inanılan qara daşı Kufə şəhəri istiqaməti tərəfinə yollandıracaqdır. Məkkədən Kufə şəhərinə cənnətdən gəlmiş qara daşı Mehdinin köçürtməyinin səbəbi budur ki, Adəmin, Nuhun, İdrisin, İbrahim məqamının qibləgahını Kərbəlaya tərəf çevirsin. Yəni müsəlmanlar namaz qıldıqları zaman üzlərini Məkkəyə tərəf yox məhz Kufə şəhərinə tutsunlar. Çünki həqiqətən şiələr üçün Məkkə şəhərində yerləşən məscidül-həram yəni Kəbə evi böyük əhəmiyyət daşımır. Bu məsələ ilə bağlı Kuleyni öz **"Furu-ul-kafi"** kitabında belə qeyd edir: **"Kim Hüseynin qəbrini ziyarət edərsə, 20 dəfə Həccə və ya 20 dəfə Ümrəyə bərabər savabı olar". (Kuleyni, "Furu-ul-kafi", səh 59).** Cəfər Sadiqdən (ə) gələn rəvayətə görə: **"Kim Aşura günü Hüseyni (ə) ziyarət edərsə, cənnət ona vacib olur." (İqbalul-ə'mal, səh 568.)** Axı necə ola bilər ki, Mehdi məscidül-həram ilə peyğəmbərin məscidini dağıtsınmı? Axı orada imamlar özləri də ibadət ediblər. Bunu da qeyd edim ki, neçə əsirlər boyu yəhudilərin arzularıdır ki, Məscidül-həramı yəni Məkkə şəhərində yerləşən Kəbə evini və Məscidun-nəbiyyəni kökündən Dəccal dağıtsın. Eləcə də şiələr Mehdi haqda belə zənn edirlər.

Mehdi, Davud ailəsinin şəriəti ilə ittiham edəcəkdir.

Kuleyni xüsusən bu məsələ ilə bağlı **"İmamlar Davud peyğəmbərin və onun nəslinin hökmü ilə hökm edərlər"** fəslində belə qeyd edir: **"Məhəmməd Baqir (ə) Xəttab ibn Əba-Übeydəyə belə buyurmuşdur: "Ey Əba-Übeydə! Qaim** (Mehdi) **qiyam edən zaman Davud və Süleymanın hökmü ilə hökm verəcək. Bu səbəbdən də dəlil və şahid istəməyəcəkdir." (Usuli-Kafi, 1 cild. , səh 397,** Müqayisə üçün Azərbaycan dilində, **"Üsuli kafi" 1 ci cild, səh 694, hədis № 1033).** Belə nəticəyə gəlmək olar ki, **"Qaim"** (Mehdi) İsrail dövlətinin **"Qıyam"** və yaxud Məsihi-Dəccal nümunəsidir. Çünki şiələrin bəzi rəvayətlərinə görə 11-ci, imamın övladı olmamışdır.

Məclisi nəql edir: **"Qaimin** (Mehdinin) **yeni işləri, təzə kitabı** (Quranı) **və yeni hüquq mühakimə üsulu olacaqdır. (Biharul-ənvar, 52 ci cild, səh 354, Qeybətun-Nö'məni, səh 154).**
Cəfər Sadiq (ə) buyurur: **"Mən sanki Kəbənin küncündə İbrahim məqamında insanların yeni kitaba** (Mehdiyə) **and içdiyini görürəm". (Biharul-ənvar, 52 ci cild, səh 135, Qeybətun-Nö'məni, səh 172).** Şiələr inanırlar ki, Mehdi qana batmış səhifələr ilə yeni Quranla gələcəkdir.
Əli (ə) belə buyurduğu nəql olunur: **"O, Həzrətin müəyyən əlamət nişanələri vardır: "Mehdi qarışmış saçlarla gələcək, üzündə bir xalı vardır". (Qeybəti Nö"mani", səh.163)**. Bu mətndə isə gizli və maraqlı faktlar var. Çünki izah edirəm: *"İbn Ömər (r.a) rəvayət edir ki, Allah rəsulu (s.ə.s) belə buyurdu: "Şübhəsiz ki, Dəccal qıvrım saçlı tək gözlü bir kimsədir. " (Buxari. 3/1270,6/2577,2607. Müslim.1/156, Muvatta, 2/920).* Məhz həmin qarışmış saçlarla üzündə bir xalı olan qıvrım saçlı tək gözlü Dəccaldır.
Bu uydurulmuş saxta hədisə diqqət yetirək. **"İbn Abbasdan (r.a) nəql olunur ki, Peyğəmbər (s.a.v) buyurdu: "Mehdi zühur etdiyi zaman onun 70.000 mələk ordusu olacaqdır." (Biharül -ənvar, 43-ci cild, səh. 24).** Lakin: *"Osman ibn Əbil əs (r.a) deyir ki, Allah rəsulu (s.ə.s) belə buyurduğunu eşitdim: "Dəccalın 70.000 ordusu olacaq. " (Ahmed. 4/216, Taberani. 9/60, ibn Mace. 4077).* Ustadımız Hafiz ibn Kəsirə görə: Dəccalın zühur etdiyi zaman 70.000 əsgəri olacaq və Xorasan əhli bir çoxu ona dəstək verəcəkdir. (İbn Kəsir, ən-Nihayə. 1/174). Qeyd edim ki, 70.000 mələk altında nəzərdə tutulan məhz Dəccalın ordusudur. Belə bir sual ortaya çıxır: Dəccalın ordusu kimlərdirmi? Lakin Cəfər Sadiqdən (ə) gələn rəvayət bunu çox gözəl açıqlayır: **"Allaha and olsun ki, Qum əhlidir! üç dəfə dedi " (Biharül -ənvar, 60 ci cild, səh. 216).** Çünki Qum əhli dedikdə İran əhli, Mehdinin yəni bəlli olmuş Dəccalın köməkçiləri nəzərdə tutulur.
Əli (ə) belə buyurmuşdur**: "Mehdi şərqdən zühur edəcəkdir. " (Biharül-ənvar, 52 cild, səh 217).** Şiə alimlərinin yekdil fikirlərinə görə **"şərq"** sözü mənası məhz İran nəzərdə tutulur yəni Mehdinin ilk zühur etdiyi yer məhz İran olacaqdır.
Saxta hədislərə diqqət yetirək: **"Peyğəmbər (s.a.v) buyurdu: "Quma ona görə "Qum" adı verilmişdir ki, oranın əhalisi Həzrət Qaimin** (Mehdinin) **ətrafına yığışacaq, onunla birlikdə qiyam edəcək və ətrafında sabitqədəm qalaraq ona kömək edəcəklər. " (Biharül-ənvar. 60, cild. səh.216).**
Bu saxta hədisdə sirr olan faktlar var. Gəlin mənimlə birlikdə müşahidə edərək mətində nə gizli səbəblər ola bilər? "**Məclisi nəql edir ki: "Xorasandan qiyam edən qara bayraqlılar Kufəyə doğru hərəkət edən zaman Mehdini görməsi ilə bey'ət etmək üçün onun hüzuruna gələcəklər." (Biharül-ənvar, 52-ci cild, səh. 217).**
"Əbu Bəkir (r.a) rəvayət edir ki, Allah rəsulu (s.ə.s) buyurdu: "Şübhəsiz ki, Dəccalın çıxdığı yer Xorasan olacaqdır və o, xalq ona itaət edəcəkdir. (Taberani Evsat 1/195. Ahmed, 1/4,7. bni Mace (4072). Tirmizi, 2237).
Dəhşətli iyrənc bir xəbəri Məclisi öz "Haqqul-yəqin" kitabında belə rəvayət edir: "**İmam Mehdi gələndə o lüt olacaq və ona ilk beyət edən Məhəmməd (s.ə.s) olacaqdır." (Məhəmməd Bağır Məclisi. Haqqul-yəqin, səh 347).**
Mehdi (ivrit) yəhudi dilində danışacaqdır: **"Cəfər Sadiq (ə) belə buyurur: " Qaimizmiz** (Mehdi) **zühur etdiyi zaman, Allaha yəhudi** (ivrit) **dilində dua edəcəkdir." (Qeybətun-Nö'məni, səh. 326).**
Bu saxta rəvayətə diqqət yetirin mətnlərdə maraqlı faktlar var. "**Peyğəmbərdən (s.ə.v) belə nəql olunur: "Yəhudilər onu** (Mehdini) **müşahidə etdikdə az miqdar istisna olmaqla, hamısı** (Mehdiyə) **iman gətirəcəklər ". (Əl-mələhimu vəl-fitən, səh.57).** Bunu da qeyd edim ki, yəhudilər həmişə haqqı bilə-bilə inkar ediblər. Allah tərəfindən göndərilmiş elçilərin heç birini

qəbul etməyiblər. Onlar Allah tərəfindən açıq-aşkar göndərilmiş sübutla Məhəmmədi (s.ə.s) inkar ediblər. O ki qaldı Mehdiyə necə iman gətirsinlər? Nə vaxtdan yəhudilər iman gətirənlərdən olublar? Yəhudilər yalnız Dəccala iman gətirəcəklər. Şübhəsiz ki, şiələrin gözlədikləri Mehdiyə.

Yəhudilər siələr kimi tarix boyu ümid etmişlər ki, bir gün Məsihi Dəccal gəlib, dünyaya hakim olub onları xilas edəcəkdir. Bu haqda yəhudi müqəddəs kitablarında belə qeyd olunur: **"Bir gün Məsihi Dəccal-xilaskar dünyaya gəlib hakim olacaqdır. Bizləri zillət girdabından xilas edəcəkdir." (Yəhudi dinin Məsihi-xilaskar intizarı, səh. 65).** Əgər şiələr desələr ki, yəhudi kitablarında qeyd olunan Məsihi İsa, nəzərdə tutulur Dəccal isə yox. Mən bu məsələ ilə bağlı deyirəm: Bu təmiz yalandır, çünki hamıya bəllidir ki, yəhudilər İsanın zühurunu yox məhz Məsihi Dəccalın gəlişini gözləyirlər.

Yəhudilərin Məsihi Dəccal haqqında inanc əsasları şiələrin Mehdi haqqında düşündükləri ilə tam şəkildə uyğundur. Budur: **"Məsih Dəccal-xilaskar, Davud səltənətindən olan bir şəxsdir. Onun müqəddəsliyi yalnız təbii bəxşişləri səbəbindəndir. Müşrik ümmətlər onun əli ilə məhv ediləcək, İsrail oğulları öz istəklərinə çatacaqdır." (Yəhudi dinin Məsihi-xilaskar intizarı, səh 65).** Şiələrin mötəbər kitabı sayılan Kuleynidən qeyd etdiyim kimi: **"Mehdi Davudun (ə) hökmü ilə hökm verəcəkdir." (Üsuli Kafi, 1-ci cild, səh 694. Mubahilə çapı).** Müqəddəs yəhudi kitablarında belə qeyd olunur: **"Rəbb bunu söylədi: "Davud da onların içində rəhbər olacaqdır". (Yəhudi kitabı, Azərbaycan dilində "Əhdi-Ətiq" Vəhy 37:24).** Müqəddəs yəhudi kitabı digər vəhy: **"Rəbb mənə dedi: "Qulum Davud onların padşahı olacaq, onların hamısına vahid rəhbər olacaq. Onlar Mənim hökmlərimə görə rəftar edəcək, qaydalarımı saxlayıb yerinə yetirəcəkdir." (Yəhudi kitabı Azərbaycan dilində "Əhdi-Ətiq", Vəhy 34:24)**

Yəhudilərin kitablarına əsasən qeyd olunur ki, Məsihi Dəccal-xilaskar məhz şiələrin gözlədiyi Mehdidir. Gəlin ətraflı mənim ilə yəhudilərin kitablarından birini müşahidə edək: **"Bizim nəzərdə tutuğumuz Məsih Dəccal-xilaskar İslamda məşhur adı ilə tanınan Mehdidir. Çünki uyğun mənbələrdə Dəccal-xilaskar haqqında belə deyilir: "O təkcə eşitməklə cəzalandırmır." Bu məlumat müsəlman sayılan İmamiyyə şiələrin mövqeyi ilə uyğundur. Onlar deyirlər ki: "Bu sifət Mehdinin (ə) xüsusiyyətlərindəndir." (Əlbərahinus-Sabatiyyə, səh 207-208).** Yəhudi kitablarına istinadən belə nəticəyə gəlmək olar ki, həqiqətən də Məsih Dəccal-xilaskar yəhudilər ilə şiələrin gözlədikləri Mehdisidir. Çünki Dəccal üçün yəhudilər nəyi iddia edirlərsə Mehdi üçün şiələrdə bu cür iddia edirlər. Şiə alimlərindən sayılan Məhəmməd Sadiq Fəxrul-İslam – Bu şəxs yəhudi olaraq əvvəllər məsihi Dəccalın zühuruna etiqad edirdi. Lakin sonralar uzun araşdırmalar apararaq müsəlmanlığın şiə məzhəbini qəbul etmişdir. O, yəhudi məsihilərə qarşı yazdığı "Ənisul-İslam" kitabında bütün müjdələrin Məsihi Dəccalın məhz Mehdinin (ə) zühuruna aid olduğunu bildirirdi. Həmçinin Məhəmməd Riza Rizai – Bu şəxs öncə yəhudi olmuş, sonradan şiə məzhəbini qəbul etmişdir. O, öz "Mənqule-Rizai" kitabında Məsihi Dəccal xilaskarın məhz Mehdi olduğunu bildirmişdir. Əhli-Sunnə alimlərindən Şeyx Saih Əli Huseyn Məğribi belə deyir: "Dəccalın qeyb və qayıdış əqidəsi ilə yəhudilər və məsihilər arasında əqidə barəsində həmfikirdirlər. Eləcə də şiə məzhəbi yalnız bu iki mənbədən istinad edir." (Tərasəna və məvazinul-nəqd, səh 184).

"Mufədəl ibn Ömər, Əbu Abdullah (Cəfəri Sadiq əleyhissalamdan) belə nəql edir: "Mehdi (ə) ilə bərabər Musanın (ə) ümmətindən 27 nəfər və eləcə də əhli-mağaradan yeddi nəfər Kufə şəhərinə zühur edəcəklər. Yuşə ibn Nun, Suleyman Əbu Ducani əl Ənsari, Miqdad, Malik Əştar. Onlar hamısı Mehdinin (ə) köməkçiləri olacaqdır. " (Şeyx Müfid, əl-İrşad səh. 402).

Məhəmməd Bağır (ə) belə buyurmuşdur: **"Qaim** (Mehdi) **şənbə günü, İman Hüseynin şəhadətə çatdığı gün (Aşura günü) zühur edəcəkdir." (Biharul-ənvar, 52-ci cild, səh 285).**

Bəllidir ki, yəhudilərin bayramı şənbə günüdür. Məhz o gün Dəccal zühur edəcəkdir.
Cəfər Sadiq (ə) belə buyurur: **"Qaimiz** (Mehdi) **qiyam edən zaman Allah-taala şiələrimizin qulaq və gözlərini o qədər iti edəcəkdir ki, onlarla Mehdi arasında heç bir poçt** (və rabitə) **olmayacaqdır. Belə ki, İmam onlarla danışdığı zaman onları eşidəcək və onu görəcəklər, halbuki İmam öz yerində olacaqdır." (Biharul-ənvar, 52-ci cild, səh.363).** Onu da qeyd edim ki, Xüsusən Dəccal öz tərəfdarı ilə sehr, cadu, hipnoz seansları ilə təmasda olacaqdır." (Mehdi və Dəccal, Şaban Dogən, səh. 74-75).
Məclisi öz **"Haqqul-Yəqin"** kitabında ağlasığmaz rəvayəti Məhəmməd Baqirdən (ə) nəql edir: **"Mehdi zühur etdiyi zaman, möminlərin anası sayılan Humeyranı (Aişəni) dirildib və onu edam edib cəzalandıracaqdır." (Məhəmməd Bağır əl-Məclisi, Haqqul-Yəqin, səh. 347. İran çapı).**
Cəfəri Sadiqdən (ə) belə rəvayət olunur: "**Höccətin (Mehdinin) ölümü çatar, onun qüsl, kəfənləmə, dəfnini imam Hüseyn (ə) öhdəsinə götürər..." (Biharul-ənvar, 51-ci cild, səh 56).**
Çox gülməli və ağlamalı bir xəbərdir. Çünki hədisin mətnindən belə izah olunur ki: Mehdinin dəfin mərasimini Hüseyn ibn Əli (ə) keçirdəcəkdir. Yəni İmam Hüseyn (ə) qəbrindən duraraq öz öhdəsinə götürəcəkdir? Nəuzubilləh. Həqiqətən çox ağılasığmaz hekayədir. Lakin dərd odur ki, şiə məzhəbindən inanan insanlar bu nağıllara inanırlar.

Mehdi Kufə şəhərini paytaxt və qibləgah edəcəkdir.

Mehdi Zühurdan sonra hara mərkəzləşəcəkdir? Şiələrin rəvayətinə əsasən, paytaxt Kufə şəhəri olacaqdır. Çünki Cəfəri Sadiqdən (ə) belə nəql olunur: **"Mehdi Səhlə məscidində məskunlaşacağıqdır. (Kafi, 3 cild, səh 495).**
Cəfəri Sadiqdən (ə) belə rəvayət olunur: **" Qaim (**Mehdi) **Kufəyə gələcək və Allahın istədiyi vaxta qədər orada qalacaq, nəhayət oranı öz ixtiyarına keçirəcək." (Biharül -ənvar, 52-ci cild, səh. 224).**
Molla Muhsin Feyz Kaşani belə nəql edir**: "Ey Kufə əhli Allah (böyük və Ucadır) elə bir Uca Allah rəhmət endirib ki, heç kəsə belə rəhmət endirilməmişdir. Sizin ibadət etdiyiniz yeri – Adəmin, Nuhun, İdrisin evini və eləcə də İbrahim məqamını çox keçməz ki, Qaim** (Mehdi) (Həcər-əl-Əsvadi) **cənnətdən gəlmiş qara daşı Kufə şəhərinə yerləşdirəcəkdir". (Əllamə Muhsin Feyz Kaşani, əl-Vafi, 1-ci cild, səh 215).**
Cəfər Sadiq (ə) belə buyurur: **"Allah Kərbəlanı səngər və qərargah qərar vermişdir, ora mələklərin və möminlərin gediş-gəliş yeri olacaq, özünün ən yüksək məqam və mərtəbəsinə çatacaqdır." (Biharül -ənvar, 53-cü cild, səh.13).**
"Abdullah Bin Mutim (r.a) rəvayət edir ki, Allah rəsulu (s.ə.s) buyurdu: "Dəccal çıxdığı zaman Kufə'yə gəlib peyğəmbərliyə (İmamlığa) iddia edəcəkdir. Bunu görən ağıl sahibi olan insanlar ondan ayrılacaqlar." (Nesai Duafa, s.53. Buxari Tarixul-Kəbir, 3/515).
Cəfər Sadiq (ə) belə buyurmuşdur: **"Qaimin** (Mehdinin) **hakimiyyət yeri Kufə, şəhəri və böyük məscidi orda olacaqdır ". (Biharül -ənvar, 52 ci cild, səh. 11-12).**
"Abdullah inb Məsud (r.a) rəvayət edir ki: "Şübhəsiz ki, Dəccalın köməkçiləri mən bilirəm kimlər olacaq." İnsanlar: "Ey ibn Məsud onlar kimlərdir?" dedilər. Buyurdu ki: Kufə - əhldirir." (Mecmauz Zevaid (7/351) Taberani (9/93) Nuaym Bin Hammad Fiten (2/534).
Cəfər Sadiq (ə) belə buyurur: **"Qaim** (Mehdi) **Kufənin arxasında min qapısı olan bir məscid tikər. O məscid bir tərəfdən Kufənin evlərinə, diqər tərəfdən isə Kərbəla və iki tərəfəni qibləgah edəcəkdir." (Əl-Qeybət, ət-Tusi, səh. 280).**
Əli (ə) Mehdinin qiyamına işarə edərək belə buyurur: **"Əhli beyt şiələrini görürəm ki, Kufə məscidinə yığışıb xeymələr qurmuşlar və orada Qurani Kərim peyğəmbərə necə nazil olmuşdusa elə o cür başqalarına öyrədirlər." (Biharül-ənvar, 52-ci cild, səh. 366).**

“Allah rəsulu (s.ə.s) buyurdu: “Onun (Dəccalın) çıxdığı zaman bir iddiası olacaq: “Mən bir peyğəmbərəm” deyəcəkdir. Halbuki məndən sonra heç bir peyğəmbər yoxdur. Sonra ikinci bir iddiası olacaq: “Mən Rəbbinizəm” deyəcəkdir. Halbuki siz ölüncəyə (qiyamət gününə) qədər Rəbbinizi görməzsiniz.” (Sünen-i İbni Mace, 4077).

Çox maraqlısı budur ki, ortaya belə bir sual çıxır: Dəccalın Kufə şəhərinə getməyinin səbəbi nədir? Bir halda ki, Kufə şəhəri şiələrin müqəddəs torpağıdır. Amma yəhudilərin bu torpaqda nə işləri ola bilər? Həqiqətən bu təsadüfdürmü?

Cavab: Şiələrin iddialarına görə Mehdini Uca Allah mağarada qeybə çəkib və oradan da zühur edəcəyi xəbər verilir. **(Biharül-ənvar, 52-ci cild, səh. 390).**

Məhəmməd Baqir (ə) belə buyurdu: **“Həzrət Qaim (ə) ona görə Mehdi adlandırılır ki, <u>Tövratı və incilin səhifələrini Antakiyadakı mağaradan çıxarıb onun vasitəsi ilə yəhudilərə dəlil sübut gətirəcək</u>, nəticədə onların böyük bir hissəsi İslamı qəbul edəcəkdir.” (Qeybətun-Nö’məni, səh 125, Muntəxəbul-əsər, səh 309).**

<u>Hamıya məlundur ki, səhabələr bir adada Dəccalı zəncirlər ilə bağlanmış halda qapalı mağarada görmüşlər</u>. Bu haqda Allah rəsulu (s.ə.s) belə buyurmuşdur: *“Dəccal oradan (mağaradan) zühur edəcəkdir.” (Səhih Müslim, Fitən 119, (2942); Əbu Davud, Melahim 15, (4326); Tirmizi, Fitən 66, (2253).*

Beləliklə də şiələrin 12-ci imamı sayılan Mehdinin bu cür nəticələrdən sonra əlamətlər bunlardır:

1). Mehdinin danışacaq dili “ivrit” yəni yəhudi dilində danışacaqdır.

2). Mehdi, Davud və Süleymanın hökmü ilə ittiham edəcəkdir. Çünki onun yeni mühakimə üsulu kitabı olacaqdır.

3). Bütün yəhudi diasporları Dəccal zühur etdiyi zaman müqəddəs Qüds şəhərinə toplaşacaqlar – Eləcə də bütün şiələr Mehdi zühur etdiyi zaman müqəddəs saydıqları Kufə şəhərinə toplaşacaqlar.

4). Dəccal zühur etdiyi zaman yəhudi xalqın düşmənlərini cəzalandıracaqdır – Həmçinin Mehdi zühur etdiyi zaman Peyğəmbərin (s.ə.s) əshabələrini cəzalandıracaqdır. Yəni Əbu Bəkir ilə Öməri (r.a)

5). Dəccal zühur etdiyi zaman yəhudilərə qarşı kim haqsızdıq edib yəhudi xalqına zülm veribsə onları məhv edəcəkdir - Həmçinin şiələrə qarşı kim haqsızdıq edibsə Mehdi zühur etdiyi zaman onları məhv edəcəkdir.

6). Dəccal dünyanın əhalisinin üçdə bir hissəsini öldürəcəkdir – Buna Uyğun olaraq şiələrin Mehdisi dünya əhalisinin üçdə bir hissəsini öldürəcəkdir.

7). Dəccal zühur etdiyi zaman yəhudi xalqı üçün nemət olaraq dağlar süd halına çevriləcəklər. - Həmçinin Mehdi zühur etdiyi zaman şiələr üçün gəlir olaraq çaylar süd halında daşacaqdır.

8). Çox maraqlı və aktual məsələlərdən biridə budur ki, Peyğəmbərin (s.ə.s) əshabələrini Dəccalı bağlanmış qapalı bir mağarada görmüşlər – Mehdi isə mağarada qeybə çəkilmişdir.

Sonda buna da qeyd edim ki, əgər şiələr desələr ki: “**Siz Mehdinin (ə) gəlişinin zühurunu qəbul etmirsiniz”** deyə müraciət etsələr. Cavab olaraq onlara deyirəm: Bu açıq aşkar böhtandan başqa bir şey deyil. Çünki İmam Mehdinin (ə) zühuru ilə yəni doğulacağı ilə bağlı bunu kim inkar edirsə o, artıq küfr etmiş olur. Eləcə də Əhli–sünnə vəl-camaatın fikrinə görə Mehdiyə beyət edib iman gətirmək vacibdir. (Sünnən ibn Macə, kitabul-fitən, bəb xurucul Mehdi, 2/1376, səhih istinadla). Şiələr oxuyucuları çaşdırmasın deyə qeyd edim ki, əhli-sunnə val camaatın çox saylı gələn hədislərində İmam Mehdi (r.a) nə Kəbə evi ilə Peyğəmbər məscidini dağıdacaqdır, nə də Davud peyğəmbərin (ə) hökmü ilə hökm verəcəkdir. Şübhəsiz ki, şiələrin gözlədikləri Mehdisi elə məhz Dəccalın özüdür. Həqiqətən İmam Mehdi (ə) zühur etdiyi zaman şiələr onu inkar edəcəklər, çünki onlar yalnız Dəccala iman gətirəcəklər.

Uca Allahdan bu kitabı məndən qəbul edib zəlalət-əhli olan insanlar üçün bu kitabı oxuyub haqqa gəlməsini diləyirəm. Amin.

Allahın salat və salamı onun Peyğəmbəri Məhəmməd – sallallahu aleyhi və səlləm – ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərinin üzərinə olsun.

Şiələrin Mehdi haqqında fikirləri.

Şiələrin və Yəhudilərin zənn etdikləri..... 2
Tarixin təhrif olunmuş səhifələri..... 2
Mehdi Ərəblərə qarşı qılınc qaldıracaq..... 3
Mehdi Kəbə evini və peyğəmbər məscidini dağıdacaqdır..... 4
Mehdi, Davud ailəsinin şəriəti ilə ittiham edəcəkdir..... 5
Mehdi Kufə şəhərini paytaxt və qibləgah edəcəkdir..... 8

Kitabın müəllifi Doktor Əbdül Əziz İbrahimi.